## “Anadolu” agentliyi COP29-u ən yüksək səviyyədə işıqlandıracaq

Türkiyənin rəsmi “Anadolu” agentliyi Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) ən yüksək səviyyədə işıqlandırmağı planlaşdırır. Bu sözləri agentliyin Ekoloji xəbərlər departamentinin rəhbəri Hale Aydoğmuş AZƏRTAC-a müsahibəsində deyib.

Onun sözlərinə görə, COP29 kimi beynəlxalq tədbirlər dünya ictimaiyyəti üçün xüsusi əhəmiyyət kəsb edir.

Departament rəhbəri əlavə edib: “Planetin ekoloji gündəliyi ilə bağlı noyabr ayında Bakıda keçiriləcək müzakirələrdə Türkiyə liderlərinin də iştirakı planlaşdırılır. Bununla əlaqədar olaraq, “Anadolu” agentliyi Bakı ofisinin əməkdaşları ilə yanaşı, Ankaradan da bir qrup jurnalist və fotomüxbirlərin Azərbaycandakı tədbirin işıqlandırılmasına cəlb edilməsini öhdəsinə götürür”.

Agentliyin nümayəndəsi qeyd edib ki, “Anadolu” əvvəlki COP sammitlərini də diqqətlə izləyib və işıqlandırıb.

Aydoğmuş vurğulayıb: “Biz ekoloji gündəmin geniş işıqlandırılması üçün AZƏRTAC və Azərbaycanın digər media orqanları, eləcə də qardaş ölkənin hökumət strukturları ilə əməkdaşlığa hazırıq”. O, “Anadolu”nun Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə uğurlu əməkdaşlığını nümunə göstərib: “Əvvəllər agentliyimiz SOCAR və Türkiyə universitetlərinin dəstəyi ilə ətraf mühitin mühafizəsi, xüsusən neftlə çirklənmiş su hövzələrinin təmizlənməsi mövzusunda silsilə materiallar hazırlayıb. Biz Azərbaycanın bütün müvafiq strukturları ilə əməkdaşlığa açığıq”.

“Anadolu” agentliyinin ətraf mühitin mühafizəsi mövzusuna xüsusi önəm verdiyini diqqətə çatdıran Aydoğmuş bildirib ki, bu kontekstdə bir neçə il əvvəl Türkiyədə ilk dəfə olaraq “Yaşıl xətt” adlı ayrıca ekoloji xəbərlər departamenti yaradılıb.

“İqlim dəyişiklikləri qlobal ölçülərə çatıb və biz ətraf mühitin mühafizəsi gündəliyinə öz töhfəmizi verməyə borcluyuq. Türkiyədə mühüm təşəbbüslərdən biri də Prezident Rəcəb Tayyib Ərdoğanın həyat yoldaşının təklif etdiyi “Sıfır tullantı” layihəsi olub. Bu ideya BMT səviyyəsində yüksək qiymətləndirilib. Bu cür layihələr “Anadolu” üçün prioritet olaraq qalır”, -deyə agentliyin departament rəhbəri vurğulayıb.

**Ramin Abdullayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**
**2024, 18 iyul**